*Sevinc Kazımova. "Yeni nəsr" kontekstində lirik-romantik elementlər // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.130-135.*

UOT: 82.0

**Sevinc Kazımova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti,*
*Baki şəhəri, Rəşid Behbudov küçəsi, 134.*
*sevinckazimova15@gmail.com*

# "YENİ NƏSR" KONTEKSTİNDƏ LİRİK-ROMANTİK ELEMENTLƏR

*(İ.Məlikzadənin "Küçələrə su səpmişəm" və "Gümüşgöl əfsanəsi" povestləri əsasında)*

**Açar sözlər:** *yeni nəsr, lirizm, təbiət, şəhər*
**Ключевые слова:** *новейшая проза, лиризм, природа, город*
**Keywords:** *new prose, lyricism, nature, city*

*"60-cı illərdən başlayaraq bədii nəsr müasir həyat hadisələrinə daha artıq nüfuz etməyə başlamış, funksionallığı artmış, bədiilik əmsalı yüksəlmişdir" [2, 17]. Bu baxımdan İsi Məlikzadə XX əsr ədəbiyyatında öz sözünü deməyi bacarmış, layiqli yer tutmuş sənətkarlardan biridir.*

Sənətkarı daha yaxından tanımaq, onun əsərlərində əks olunan həyat hadisələrini bütün təfərrüatı ilə anlaya bilmək üçün, onun təsvir etdiyi qəhrəmanları dərindən müşahidə etmək, mənəvi dünyalarına varmaq, yaşadıqlarını hiss etmək lazımdır. Bu baxımdan ədəbiyyatşünas tənqidçi Vaqif Yusifli "İsi Məlikzadənin yaratdığı söz dünyası yaşayır" adlı məqaləsində haqlı olaraq qeyd edir ki: "İsi Məlikzadə... Azərbaycan bədii nəsrinin XX əsrdə yetirdiyi görkəmli söz ustalarından biri... Ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi deyim tərzi, yolu və üslubu olan bir sənətkar... Gözəl hekayələr müəllifi... müasir Azərbaycan povestinin yaradıcılarından biri... Bədii nəsrdə ən doğru həqiqətləri sənət dililə ifadə edən, XX əsr Azərbaycan ziyalısının, kəndlisinin obrazlarını yaradan ustad nasir... Neçə bədii filmin ssenari müəllifi... Və nəhayət, heç vaxt xatirələrdən silinməyən, yaddaşlarda yaşayan əziz dost, gözəl insan...

Əgər biz keçən əsrin 50-90-cı illər Azərbaycan mənəvi mühitini, Azərbaycan ziyalısının və kəndlisinin həyat və məişətini, duyğular aləmini daha yaxından izləmək istəsək, heç şübhəsiz, İsi Məlikzadənin bədii nəsri və bu nəsrin qəhrəmanları əlimizdən tutacaq, ən yaxın bələdçimiz olacaq. Mənim İsi ilə ünsiyyətim, birgə işlədiyimiz illərdə onunla bu və ya digər dərəcədə təmasım onu həm də bir insan kimi tanımağa, duymağa kömək elədi. Və mən baxıb gördüm ki, İsi özü bir insan kimi hər hansı bir əsərin baş qəhrəmanı ola bilər" [11, 7].

İsi Məlikzadəni ədəbiyyatın çətin, bir az mürəkəb, bir az da dolanbac yollarından keçə-keçə, sonra təsdiqlənən, etiraf olunan və görkəmli yazıçı səviyyəsinə elə sağlığında çatan bir yazıçı kimi səciyyələndirmək olar. O öz yaradıcılığı ilə sübut etdi ki, əsl ədəbiyyat adamı birdən-birə yetişmir, necə deyərlər, "göydən zənbillə düşmür". Əsil ədəbiyyat adamı şöhrət üçün, titul üçün sənətə gəlmir... Tanrı bəlkə də belə adamları özü əvvəlcədən seçir, ayırır...

"İsi Məlikzadə ədəbi dil qanunlarını gözəl bilən, bədii və ümümxalq danışıq dilindən, folklor xəzinəsindən məharətlə istifadə edən, müəllif təhkiyəsi ilə personajların danışığı arasındakı həddi ciddi gözləyən, lakonizmə meyl edən nasirlərimizdəndir" [5, 184]. Onun ilk

hekayə və povestləri keçən əsrin 60-cı illərinin həyat həqiqətlərini əks etdirirdi. Həmin əsərlərin qəhrəmanları da elə İsi yaşında, ya da ondan cavan idilər. "Evin kişisi", "İki günün qonağı", "Kövrək qanadlar", "Sağlıq olsun", "Qartal yuvası" əsərlərindəki obrazlar - balaca qəsəbədə, ya bir rayon mərkəzində, ya da kənddə-kəsəkdə yaşayırdılar. Onlar sosrealizmin tələbi ilə yanaşsaq "müsbət qəhrəman" deyildilər. Buna görə də, bəzi ədəbiyyatşünaslar İsi Məlikzadəni tənqid edirdilər ki, niyə bu obrazları passiv verir. Niyə onlar sözdən işə, işdən mübarizəyə keçmirlər? Nə olsun ki, bu obrazlar mənən saf və təmizdirlər? "İsi Məlikzadənin yazıb-yaratdığı 60-90-cı illərin ədəbiyyatı özünün aktual problemləri ilə, mövzu, janr müxtəlifliyi, istedad, intellekt səviyyəsi, ideya kamilliyi ilə, həyata və cəmiyyətə, insan və təbiətə sərrast, polemik, hətta müxalif yazıçı münasibəti ilə diqqəti cəlb edir" [1, 19].

"Müasir nəsr ənənəvi əxlaqi problemin (və əxlaqi qəhrəmanın) əhəmiyyətini azaltmaqla bərabər, elə adamlar barədə yazmağa başlayır ki, onlar əvvəllər, nəsrin diqqətini çox az məşğul edərdi. Qəribə, uğursuz, təzadlı, mürəkkəb taleli adamlar həyatda bəxti gətirməyənlər, ütüsüz, rəndələnməmiş, nahamvar düşüncələr, xasiyyətlər və xarakterlər də nəsrə axınla daxil olmağa başladı [5,127].

İsi Məlikzadənin müəllifi olduğu "Küçələrə su səpmişəm" povesti xarakterlər qalereyası baxımından maraqlı nəsr nümunəsidir. Daha çox tərbiyəvi və didaktiv mövzuda qələmə alınmış əsərdə maraqlı və düşündürücü məqamlar çoxdur. Povestdə hadisələr Xəlil və Bəhmən adlı qəhrəmanların ətrafında cərəyan edir. Bəhmənin atası uşaq vaxtından vəfat etmiş, onu əmisi Əziz böyütmüş, oğlu Xəlildən heç vaxt ayırmamışdı. Onlar ayrı-ayrı evdə yaşasalar da, eyni ailənin üzvü kimi mehriban və doğma idilər. Bəhmənlə Xəlil məktəbi bitirdikdən sonra sənədlərini tibb universitetinə vermək üçün Bakıya gəlmiş, qismətlərini birgə paylaşmış, bir hədəfə vurmuşdlar. Valideynlərinin "bir-birinizə həyan olun, instituta daxil olduqdan sonra da ayrılmayın" arzusu ilə imtahan verən Bəhmən yüksək qiymətlər alaraq universitetə daxil olmuş, Xəlil kimyadan iki aldığına görə kəndə qayıtmağa məcbur olmuşdu. Gənclik illərinin bu ilk məğlubiyyəti Xəlili oxumaq həvəsindən soyutmamış, əksinə, onun əzmini daha da artırmış, gecə-gündüz kitab oxumağa meylləndirmişdi. O düşünürdü ki, "Xəlil hələ qocalmayıb, hələ ölməyib, gecəni-gündüzünə qataraq kimyanı əzbərləyəcək və gələn il Tibb institutunun işıqlı otaqlarından birində oturub mühazirəyə qulaq asacaq" [8, 44]. Lakin təsadüf Xəlilin arzularını gözündə qoymuş, gənclik ümidlərini puç etmişdi. Tibb universitetində oxumaq arzusu, qonşu qızı Sayada bəslədiyi sevgi Bəhmənin kəndə qış tətilinə gəlməsi ilə sadəcə şirin bir xatirəyə dönmüş və qəlbinin dərinliyində qalmışdı. Həmişə Sayadgilin darvazasından keçəndə zümzümə etdiyi "Küçələrə su səpmişəm, yar gələndə toz olmasın, Elə gəlsin, elə getsin aralıqda söz olmasın" söyləyən Xəlil bir bədbəxt hadisənin qurbanına çevrilmiş, axıtmadığı qanla küçələrdəki bütün qapıları üzünə bağlatdırmışdı.

Qış tətilində evlərinə gələn Bəhmən özüylə birlikdə "uğursuzluğu" da çəkib gətirmiş nahaq qana bais olmuşdu. Kənddə "traktor" ləqəbi ilə tanınan, işləyəndə "yoruldum", yeyəndə "doydum" deməz Tağı, Xəlil, bir də Bəhmən qışın dadını çıxartmaq üçün ova gedirlər. Lakin Bəhmənin təkidilə baş tutan ov həm Xəlilin, həm də Tağının həyatını alt-üst edir. Ovda qəfildən Bəhmənin əlindəki tüfəngdən açılan güllə Tağının həyatını məhv edir. Tağı ölsə də, Xəlil bədbəxt hadisənin sözün əsil mənasında gerçək qurbanına çevrilir. Bəhmən etdiyi cinayətin arxasında durmur, həyatının dəyişməsindən, həbsxanaya düşməsindən, yaşayışınn alt-üst olmasından qorxur və hər şeyi Xəlilin öhdəsinə buraxaraq qaçır. Kənd hadisədən xəbər tutanda isə Xəlili baş vermiş hadisədə Xəlili məzur görür. Yeganə şahid öldüyü üçün Xəlili həbs edirlər. Özünün deyil, başqasının taleyini yaşamağa məcbur olan Xəlil həyatının ən gözəl illərini həbsxanada keçirməli olur. Əsl suçlu-Bəhmən onu bir müddət ziyarət etsə də, zamanla həbsxananın yolunu unudur, "özgəsinin həyatı"nı yaşamağı tərcih edir. Qayğısız tələbəlik illəri, azadlığın nəsib etdiyi gözəl anlar, sapa düzülmüş uğurlar ona hər şeyi, hətta oğurladığı taleyi belə unutdurur. Başqasından borc alınmış, "kirayələnmiş" həyat onun üzünə güldükcə o özünə yaxınlaşdığı halda, Xəlildən bir o qədər uzaq düşür.

Xəlil həbsxanadan çıxdıqdan sonra evlərinə yox, başqa bir rayona üz tutur, orda məskən salır, ocaqçı Xəlil Cəfərzadə kimi camaat arasında hörmət qazanır. Ocaqxananın müdiri Çərkəz dayı təbiət etibarilə sakit, hardasa adamayovuşmaz Xəlilə ürək qızdırır, haqqında heç nə bilməsə də onunla öz oğlu kimi davranır, yeri-yurdu, kimi-kimsəsi bilinməyən bu insana mənəvi cəhətdən dəstək olmağa çalışır. Onun "ev-eşik sahibi" olması üçün əlindən gələni əsirgəmir, Xəlilin məramını bildikdən sonra onu Teybə adlı ağıllı bir qızla evləndirməyə də yardımçı olur.

Lakin bütün bunlar Xəlilin həyatını maddi tərəfdən dəyişə bildiyi halda, aldığı mənəvi zərbənin ağırlığını o, bir ömür boyu unuda bilmir. Bəhmənin öz xoşbəxtliyi bahasına qurban verdiyi "Xəlilin həyatı" Promotey əzabı qədər Xəlili incidir. Küçələrə tökmək üçün deyil, qəlbindəki nisgili, baş tutmayan arzuları, gerçəkləşməyən ümidləri dilləndirmək, içindəki görünməyən, lakin onu için-için yandıran alovu söndürmək üçün illər idi ki, su arayırdı. Əsərin sonunda kəndin küçələrinə səpilən yağış sanki Xəlilin acı xatirələrinin üstünə çilənib, onun içinə yığılmış, dinc həyatına yük olmuş dərdlərini dinləndirir. Hər yağışdan sonra gün çıxdığı kimi görkəmli yazıçı Xəlilin də həyatının dəyişəcəyinə, xoşbəxt olacağına, yaralarının qaysaq bağlayacağına, taleyinin oğurlanmadığına oxucunu ümidli edir. Çünki bu elə şərəfli, ləyaqətli bir ömür idi ki, bu ömrü yaşamağa Bəhmən və bəhmənkimilərin gücü çatmazdı. "Ədəbiyyatın əbədi vəzifəsindən biri də insanın adi tərəfinin bütün çalarını açıb göstərməkdir" [6, 11].

"60-cı illər nəsri janr, üslub, mövzu və problematika cəhətdən də dəyişir; cəmiyyətdə ideoloji mübarizə səngidikcə ədəbi fikrə siyasi təzyiqlər də azalır. Bədii nəsr bu mərhələdə bir qədər də saflaşır, ideoloji meyllərdən təmizlənir, mövzu rəngarəngliyinə qovuşur, yeni imzaların gəlişilə üslub müxtəlifliyi qazanır. Bədii düşüncədə ictimai faktorların azalması ilə bədii siqlət daha da güclənir, təbiətlə cəmiyyətin təmasının bədii salnaməsi yaranır" [2, 9]. Bu baxımdan İ.Məlikzadənin "Gümüşgöl əfsanəsi" povesti Azərbaycan ədəbiyyatında maraqlı bədii nümunələrdəndir. Elə bu səbəbdən də tənqidçi 60-cı illərdə meydana gələn bədii nümunələri ümumiləşdirərək qeyd edir ki: "Əvvəllər daha çox vüsətli epik lövhələrə, panoram şaxəli təsvirlərə meyl etmiş nəsrin bizdə də (bu proses bütövlükdə sovet ədəbiyyatında müşahidə edilmişdir) əllinci illərin axırlarından başlayaraq, janr ölçüləri və vərdişləri nəzərəçarpacaq dərəcədə dəyişmiş, yığcam romanlar, psixoloji-dramatik povestlər geniş müvəffəqiyyət qazanmışdır" [ 5, 127].

"Gümüşgöl əfsanəsi" povestində mənəvi-əxlaqi problemlərə toxunulur, insan psixologiyasının müəyyən məqamları göstərilir, şəhər və kənd həyatı, insan taleyi, insanın cəmiyyətlə və təbiətlə münasibəti bədii-simvolik şəkildə təsvir edilir. "Sivil", lakin, ilkinlikdən uzaq şəhər mühiti ilə təmiz kənd mühiti qarşılaşdırılır, biri digərinə qarşı qoyulur. Yazıçı qəhrəmanı vasitəsilə oxucuları qarşısında seçim imkanı yaradır.

Ədəbiyyatşünas Z.Salmanova "Həyatla bağlı nəsr" məqaləsində yazır: "Gümüşgöl əfsanəsi" İsi Məlikzadənin yaradıcılıq imkanlarını, onun müasir həyatla bağlılığını nümayiş etdirən bir kitab kimi yadda qalır... Yazıçı öz yeni əsərlərində də həyat həqiqətlərinə sadiq qalıb, əvvəlki kimi inandırıcı yazır..." [10, 189].

Əsərin qəhrəmanı Orxan xalçaçılıq üzrə aspirantura oxuduğu üçün müəllim Xürrəmin tapşırığı ilə Çapıqqaya kəndinə gəlib məşhur xalça ustası Ağabəyimlə görüşmək məqsədilə Çapıqqaya kəndinə gedir. Bu kəndin əfsanəvi ab-havası, gözəl təbiəti Orxana xoş təəssürat bağışlayır. Elə Çapıqayanın təbiəti üzərində köklənmiş Ağabəyimin qızı Bənövşənin "tilsiminə düşür". Qızın mənəvi saflığı şəhərdən gəlmiş gənci ovsunlayır. Qızın dürüstlüyü, səmimiliyi, hardasa sadəlöhvlüyü Orxanı təəcübləndirir, onun həyat fəlsəfəsini dəyişdirir. Yazıçı Sabir Əhmədli haqlı olaraq qeyd edir ki: "Təbiətdən zövq ala bilməyən adamın saflığına mən inanmıram. Bu adam mənəviyyatca zəngin bilməz" [3,180].

Şəhərdə öyrəşdiyi, əhatə olunduğu meşşan mühitlə paradoks təşkil edən "Bənövşə dünyası" sanki onu tanımadığı, bələd olmadığı "paralel dünya"yla tanış edir. "Povestin baş, ideal qəhrəmanı "Gümüşgöl"dür. İnsanın dünənini, bu gününü, sabahını təyin eləyən təmizlik, pak-

lıq, daxili böyüklük və bir də “hər şeyi məhv edən, lakin özünə gücü çatmayan Məhəbbətdir” [11,104].

Lakin Orxan cərəyan edən hadisələrin inkişafında sona qədər ziddiyyətli və mürəkkəb təbiətli obraz kimi yadda qalır. Əsərin əvvəlində Səfa adlı gənc xanımla sevgili olduğunu, eyni zamanda bu münasibətə saf, təmiz duyğularla deyil, vaxt keçirmək məqsədi ilə başlandığının, hisslərində tərəddüd keçirdiyinin şahidi oluruq: “Orxan yatmaqdan, dincəlməkdən ümidini üzdü, dikəlib çarpayıda oturdu. Anladı ki, sabah da belə olacaq, biri gün də, o biri günlər də - beləcə xiffət çəkəcək, bu xiffətdən yaxasnı qurtarmayınca bu gen dünyada rahatlıq tapmayacaq. Bəs bu fikirlərin əlindən baş götürüb hara qaçasan, hara? Adam özündən necə qaça bilər?.. Orxanın qulaqlarına bulaq şırıltısınabənzər bir səs gəldi, yenə yadına dağ düşdü, çəmən düşdü” [7, 221]. Bu təsvirlərdən bir daha aydın olur ki, Səfa ilə keçən yeknəsəq günlər gənci getdikcə bezdirir, daha fərqli məkana, fərqli münasibətə, yenidən sevməyə və sevilməyə sövq edir. Evlənmək kimi ciddi bir mərhələnin qarşısında dayanan gənc konkret qərar qəbul etməkdə çətinlik çəkir.

Orxan Səfa əvvəllər evli olsa da, şabalıdı saçlı, ağbəniz xanıma fərqli düşüncələrlə yaxınlaşmış, onu özünün gələcək həyat yoldaşı, anası Fatma həkimin gəlini kimi düşünmüşdü. Zaman keçdikcə o bu düşüncələrdən uzaqlaşmış, nə onunla evlənməyə, nə də ayrılmağa qərar verə bilmişdi.

Tale onu Çapıqqayada nağıllardan gəlmiş, günahından həyatın dibində deyil, təmizliyindən suyun üstündə olan, təbiətin dilində danışan bir mələklə- Bənövşə ilə görüşdürür. Səfa ilə müqayisədə düzəni, dünyası fərqli olan, əxlaqı mükəmməlliyi, gənc olmasına baxmayaraq ağıllı, müdrik davranışları ilə Orxanın diqqətini çəkir

Ən mənfi xarakterə malik insanlarda belə kiçiçik də olsa mərhəmət, xeyirxahlıq əlamətinin olması mümkün olduğu kimi, Orxana da bütün bu anlaşılmaz hərəkətləri sırasında rəğbət oyandıra biləcək bir məqam diqqətdən yayınmır, bu da anası Fatma xanıma qarşı olan səmimi münasibəti idi. “Köhnə nəsl”in nümayəndəsi kimi ana oğlunu halal süd əmmiş, əsas qayəsi yalnız ailəsinin və uşaqlarının xoşbəxtliyi olacaq bir qızla evləndirmək istəyi ilə çırpınırdı. “Yeni nəslin” nümayəndəsi olan Orxan isə daha müasir düşüncəli bir xanımla ailə qurmaq istəyirdi. Dünyagörüşlərində və dünyayabaxışlarındakı ziddiyyətə baxmayaraq Orxanın bəzən anasının tələblərini diqqətdə saxlayıb ona uyğun hərəkət etdiyinin şahidi oluruq. Bu bir tərəfdən Orxanın xarakterində başqalarının fikirlərindən asılılıq, özünəgüvən duyğusunun aşağı olması ilə bağlı olduğu kimi, eyni zamanda anasına qarşı hörməti kimi də dəyərləndirilə bilər. İkinci müddəanın həqiqətə daha uyğun olduğu Orxanın Bənövşə ilə bağlı düşüncələrində də üzə çıxır. Düşünür ki, Orxanı ziddiyətli, qərar qəbul etməkdə çətinlik çəkən obraz kimi dəyərləndirən onun fərqli qadınlara bağlanmasıdır. Səfa müasir düşüncəlidir, gözəldir, lakin əxlaqı Orxanı həmişə düşündürür. Ciddi addım atması üçün tərəddüdə salır. Bənövşə safdır, mənən çox pakdır, Orxan üçün “göydən düşüb”. Amma “sivilizasiyadan”, “meşşan mühiti”dən bir o qədər uzaqdır. Təbiətin özü kimidir. Yonulmamış. Necə varsa elə. “Bənövşənin gözlərindəki duruluqdan, dodaqlarındakı təbəssümdən Orxanın ürəyinə bir işıq seli axdı. Ürəyi o qədər isindi, divarları diş-diş olan daxmanın soyuqluğunu daha hiss etmədi. Qız, üzünə dağılan telini hərdən başının hərəkəti ilə geri atırdı və həmin anda fürsət tapıb Orxana nəzər salırdı. Orxanla Bənövşənin baxışları rastlaşanda qız ürküb gözlərini tez çəkirdi, ucuqatdalı uzun kirpiklərini çırpa-çırpa döşəməyə baxırdı, ya da özünü məşğul kimi göstərirdi; çay dəsmalını götürüb samovarın qulpunu, qapağını silirdi. Bənövşə sevincini, marağını gizlədə bilməyən uşağa bənzəyirdi” [7, 229]. Bənövşə o qədər saf qızdır ki, uşaqlıq dövrünü çoxdan arxada qoymasına baxmayaraq, hələ də nağıllara, əfsanələrə inanır. Görünür birinin gözəlliyini, digərinin saflığını özündə birləşdirən bir qız Orxanı valeh edər, cəsarətli addım atmasına təkan verərdi.

Yazıçının təsvirində biz Çapıqqayada necə ağır bir təsərrüfat həyatının mövcudluğunu, kənd təbiətinin sərtliyini, eyni zamanda camaatının təmiz, saf düşüncəyə malik olduğunu

görürük. Belə bir mühitdə böyüyən Bənövşə ailəsindən daha çox təbiətə meyllənmiş onun otunun, çiçəyinin dilini öyrənmişdi. Evin böyüyü ata tərəfindən tərk edilən ailə başsız qalmış, Ağbəyimin oğlu Rza isə "atadan sonra evin dirəyi oğuldur" fikrini əsas tutaraq, yeniyetmə olmasına baxmayaraq özünü ailə başçısı kimi yetkin bir insan kimi aparırdı.

*Bənövşə kimi zərif çiçəyə sahiblənmək coşqusu ilə çırpınan Dəmir kobud, sərt iradəsi ilə hiddət doğurur. O, Bənövşənin onu sevmədiyinə baxmayaraq hər dəfə sərt münasibət nümayiş etdirir, qızın məhəbbətini qazanmaq əvəzinə daha da özündən uzaqlaşdırır. Dəmir onu sevməyən qadını evliliyə məcbur edən, onu özündən asılı hala salmaq üçün ən çirkin əməllərə əl atmaqdan belə çəkinməyən biri kimi yaddaşlarda iz buraxır. Dəmir Rzaya iş vermiş, onun ailəsinə həmişə köməklik etdiyi üçün əvəz olaraq onlardan Bənövşəni istəmişdi. Lakin birdənbirə Orxanın peyda olması bütün ailənin, eyni zamanda Dəmirin planlarını alt-üst etmiş, şəhərdən gəlmiş "çağrılmamış qonaq" hər kəsin xoşbəxtliyini oğurlamışdı.*

*Lakin Orxanın tərəddüdləri, qərara gələ bilməməsi Bənövşənin bütün arzu və xəyallarını gözündə qoyur, onun bədbəxtliyini şərtləndirir. Lakin bu qızın simasında, həyat baxışında bir həqiqət üzə çıxır: "Həyat heç vaxt ideal ola bilmədiyi kimi, sənət də də heç vaxt ideallığa çağırmaqdan yorulmur" [6, 272 ].*

## Ədəbiyyat:

1. Abasova S. İsi Məlikzadənin yaradıcılığı. /namizədlik dis./ Bakı: Bakı Dövlət Universiteti, 2005.
2. Əhmədov B. XX yüz il Azərbaycan ədəbiyyatı. Bakı: "Elm".
3. Əhmədov S. Toğana. Bakı: "Yazıçı", 1985.
4. Əbilov İ. Gerçəkliyin bədii təcəsümü. Azərb. jur., 1084, № 8.
5. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı: "Yazıçı", 1988.
6. Məmmədli C. Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri. Bakı., BDU nəşri, 1998, 316 s.
7. Məlikzadə İ. Gümüşgöl əfsanəsi. Bakı: "Yazıçı", 1987.
8. Məlikzadə İ. Küçələrə su səpmişəm. Bakı: "Gənclik", 1977.
9. Məlikzadə İ. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2005.
10. Salmanova Z. Həyatla bağlı nəsr. Azərb. jur., 1988, № 8.
11. http://kulis.lent.az/news/6292

**Севиндж Казымова**

## «Лирик-романтические элементы в контексте новой прозы»

## *РЕЗЮМЕ*

Писатель-драматург Иси Маликзаде один из виднейших представителей современной азербайджанской литературы. Многие писатели, критики, видные ученые, друзья пера говорили о его прозе как в его здоровье, так и после его смерти.

Будучи социально ориентированным представителем лирической прозы, он гораздо более чутко затронул тему природы и сельской жизни, чем писатели 1970-х и 1980-х годов. Главные герои Иси Маликзаде в сельской местности состояли из средних интеллектуалов - музыкантов, врачей, учителей и других - больше, чем помещиков.Его повествование часто строилось на судьбе таких людей.

Начиная с первой работы, чистота и невинность основныхгероев в произведениях Иси Маликзаде - не герой, а основной творческий элемент сюжета, своего рода

персональный миф писателя. Простой, чистый деревенский человек столкнулся с индивидуальными и эгоистичными реалиями города.Фактически, создавая самые разнообразные версии этого мифа, проза Ису Маликзаде развилась и созрела, сюжет и интрига стали более богатыми и глубокими в морально-этическом плане.

История Иси Маликзаде, написанная в 1977 году: «Кючелере су сепмищем», имеет много других образовательных, стимулирующих и заставляющих думать моменты. «Гюмюшгельская легенда» была, по сути, философской частью этой истории.В компактном повествовании автор поставил все свое творчество и то, что он сказал, в общую форму легенды. Три главных героя в повествовании - Орхан, Агбайим и Бановшах отражают три разные судьбы. Но все эти судьбы связаны с природой и проблемами естественной жизнью.

**Sevinj Kazımova**

**“Lyric-romantic elements in the context of the new prose”**

***SUMMARY***

Playwriter Isi Malikzade is one of the most prominent representatives of contemporary Azerbaijani literature. Many literary critics, critics, prominent scholars, pen friends have spoken about of his prose works both in his health and after his death.

As a socially-orientated representative of lyrical prose, he brought the theme of nature and rural life much more sensitively to literature than the writers of the 1970s and 1980s.The main heroes of Isi Malikzade in the rural area consisted of middle intellectuals - musicians, doctors, teachers and others more than the landlords. His narrative was often built on the fate of such people.

Starting with the first work, the purity and innocence of the main characters in the works of Isi Malikzade is not the hero, but also the main plot creative element, a kind of writer's personal myth.A simple, clean village mancollided with the city's individualist and selfish realities.In fact, creating the most varied versions of this myth, Isi Malikzade's prose developed and matured,his plot and intrigue became richer and deeper in moral and ethical terms.

In the narrative of Isi Malikzade, written in 1977, "Kucalara su sepmisham" there are many educational, exemplary and thought-provoking moments.The "Gumushgol legend" was, in fact, a philosophical part of this history.In a compact narrative, the writer put all his work and what he said into the general form of the legend. The three main heroes in the narrative - Orkhan, Agbayim and Banovshah reflect three different fates.But all these fates are related to nature and problems of natural life.

*Redaksiyaya daxil olma tarixi: 07.07.2018*
*Çapa qəbul olunma tarixi: 12.09.2018*

Filologiya üzrə fəlsəfə doktoru, dosent **Aytac Zeynalova**
tərəfindən çapa tövsiyə olunmuşdur.